# Nizami Gəncəvi klassik və müasir tədqiqlərdə

Dekabrın 7-də “Art Garden” restoranında Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş yekun ümumrespublika elmi-praktik konfransı keçirilib. “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Elmi-Mədəni Mərkəzi tərəfindən təşkil edilən konfrans çərçivəsində respublikamızın tanınmış Nizamişünas alimləri və klassik Azərbaycan, eləcə də rus tədqiqatçılarının elmi araşdırmalarının toplandığı “Nizami Gəncəvi klassik və müasir tədqiqlərdə” adlı 1028 səhifədən ibarət kitab təqdim olunmuşdur.




Filologiya üzrə fəlsəfə doktoru, Elm şöbəsinin müdiri İradə Musayevanın moderatorluğu ilə keçirilən tədbirdə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Əsgər Ələkbərov salamlama nitqi ilə çıxış etdikdən sonra kitabın elmi redaktoru Milli Məclisin deputatı, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, filologiya elmləri doktoru, professor Vilayət Quliyev, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, filologiya elmləri doktoru, professor, AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Komparativistika və bədii tərcümə şöbəsinin müdiri Şəfəq Əlibəyli, filologiya üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin dosenti Əsmətxanım Məmmədova, əməkdar incəsənət xadimi, professor, Bəstəkarlar İttifaqının üzvü Zümrüd Dadaşzadə, Azərbaycan Yazıçılar birliyinin sədri Anar Rzayev, filologiya üzrə fəlsəfə doktoru Səadət Şıxiyeva çıxış ediblər. Məruzələr ətrafında çıxış üçün qonaqlara söz veriləndən sonra tədbir iştirakçıları çay süfrəsinə və İçəri şəhərin tarixi abidələrinə ekskursiyaya dəvət olunublar.

Yeni Azərbaycan.- 2021.- 8 dekabr.- S.7.